# *Rəcəb Tayyib ƏRDOĞAN:* "Türkiyə beynəlxalq hüquq çərçivəsində prinsipial və ədalətli mövqe tutur"

**BMT-nin 77-ci Baş Assambleyasında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin terrora qarşı hər cür tədbiri görməyə qadir olduğunu və nə lazımdırsa, onu etməkdən çəkinməyəcəyini vurğulayıb.**

Türkiyə lideri BMT-nin daha ədalətli dünya nizamı üçün həll yolları yarada biləcək ortaq iradəni bir araya gətirən təşkilat olaraq yenidən qurulmasının vacibliyini vurğulayıb. O bildirib ki, Təhlükəsizlik Şurasının daha effektiv, demokratik, şəffaf və hesabatlı struktura çevrilməsi rifah və ədalət axtarışında mühüm dönüş nöqtəsi olacaq.

Suriyada davamlı həll yolunun tapılmasının vacibliyini vurğulayan Ərdoğan bildirib ki, bu, həllin tapılmaması bölgədəki etibar və sabitliyi, həmçinin Suriyanın ərazi bütövlüyünü daha da təhdid edir.

Prezident həmçinin deyib ki, Türkiyənin təhlükəsizlik qüvvələrinə və mülki şəxslərə qarşı terror aktları törədən PKK və onun törəmələrinə rəsmi Ankara biganə qala bilməz. "Bu terror təşkilatını ad dəyişikliyi kimi hiylələrlə qanuniləşdirməyə çalışanları terrorçuları silahlandırmaq və dəstəkləməkdən əl çəkməyə dəvət edirik"-, deyən Ərdoğan vurğulayıb.



Türkiyədə bölgələrində 100 min briket evi tikdiklərini və 1 milyon suriyalının öz torpaqlarında yaşamasını təmin edəcək 200 min evin tikintisi üçün hazırlıqlara başlanıldığını bildirən Rəcəb Tayyib Ərdoğan 13 ayrı mərkəzdə və kənd yerlərində təhlükəsiz zonalarda inşa ediləcək bu layihənin reallaşması üçün beynəlxalq dəstəyə ehtiyac olduğunu vurğulayıb: "Qaçqın böhranını özlərinə daha yaxşı gələcək təmin etmək üçün yola çıxan günahsız insanların qayıqlarını batırıb onları ölümə tərk etməklə, sərhədlərə divar çəkməklə, insanları həbs düşərgələrinə salmaqla həll etmək olmaz".

Rusiya-Ukrayna münaqişəsinə də toxunan Türkiyə Prezidenti deyib ki, epidemiyadan ağır zərbə alan qlobal iqtisadiyyat bu münaqişə ilə yeni şok dalğasına məruz qalıb. Müharibə ərzaq təhlükəsizliyini də riskə atıb: "Maddi və texnoloji imkanların ən yüksək həddə çatdığı XXI əsrdə dünya əhalisinin beşdə birinin hələ də aclıqdan əziyyət çəkdiyini izah etmək mümkün deyil".

ABŞ-a səfərinin sonunda Ərdoğan Nyu Yorkdakı Türk Evində jurnalistlərin suallarını cavablandırıb.

Türkiyə Prezidenti bildirib ki, Rusiya ilə Ukrayna arasında sülhün bərqərar olması istiqamətində səylər davam edir. Türkiyə bu istiqamətdə, beynəlxalq hüquq çərçivəsində prinsipial və ədalətli mövqe tutub. Qardaş ölkə əvvəldən dialoq və diplomatiyanın gücünə inanıb və bunu sübut etməyə çalışıb.

Rəcəb Tayyib Ərdoğan hesab edir ki, başda BMT olmaqla, eyni təşəbbüs sərgilənməli və problemin həlli üçün daha çox səy göstərilməlidir. Lakin təəssüf ki, BMT nə münaqişəyə son qoya, nə də yaranan enerji və ərzaq böhranlarını həll edə bilir.

Türkiyə liderinin fikirincə, taxıl dəhlizi mövzusunda səy göstərməsi BMT-yə etibarı bir az artırıb. Amma bu təşkilat münaqişənin bitməsi üçün daha çox səy göstərməlidir: "Bu, təkcə mənim deyil, bütün dünya ölkələri başçılarının birgə çalışmaları ilə həyata keçirilməli prosesdir. Hər kəs bu kanalı gücləndirməlidir".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

Azərbaycan.- 2022.- 24 sentyabr.- S.5.